# Dövlət Suverenliyi milli sərvətimizdir

# Bizi taleyimizin sahibi edən böyük gün

**Dövlət müstəqilliyi, suverenliyi uğrunda mübarizə bütün dövrlərdə Azərbaycan xalqının ən ali məqsədi və şərəf işi olub. Bu, öz varlığını, vətənini, milli kimliyini göz bəbəyi kimi qorumağın tarixi timsalıdır.**

**Suveren dövlətə sahib olmaq eyni bayraq altında birləşən, Vətənin azadlığı, bütövlüyü uğrunda vuruşub qurbanlar verən xalqımız üçün ən böyük dəyərdir. Xalq bu dəyər sayəsində öz haqlarını təmin edir, milli mövcudluğunu qoruyur, yaradıcılıq əzmi, nəsillərdən-nəsillərə ötürülən dövlətçilik irsi ilə tarixdə yeni səhifələr yaradır.**



Dövlətin müstəqilliyi, suverenliyi xalqların istiqlal mübarizəsinin, əsrlər boyu formalaşdırdığı mənəvi potensialın, maarifçilik ənənələrinin, milli-mənəvi dəyərlərə bağlılığının, eyni zamanda milli vəhdətinin bariz təcəssümüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü təsis olundu. Bununla da ötən il Qarabağda aparılmış qısamüddətli antiterror əməliyyatı nəticəsində əzəli yurdlarımızın erməni separatçılarından tam təmizlənməsi, Xankəndidə dövlət bayrağımızın ucaldılması, Azərbaycanın qəlbindəki illərin yarasının sağalması ilə yaddaşımıza yazılmış böyük bir günün əlamətdarlığı təqdimdə rəsmiləşdi. Bu münasibətlə indi hamı bir-birilə sevincini, fərəhini paylaşır. Sərəncamda oxuyuruq: "Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır".

## Suverenliyimiz milli sərvətimizdir

Suverenlik ölkənin daxilində və ondan kənarda müstəqilliyin ifadəsidir. Dövlətin siyasi və hüquqi xüsusiyyəti kimi onun öz daxili və xarici funksiyalarını azad və sərbəst şəkildə konstitusiyasına və qanunlarına, beynəlxalq hüququn hamılıqla tanınmış prinsiplərinə və normalarına uyğun həyata keçirə bilməsidir. Eyni zamanda xalqın sərbəst və müstəqil şəkildə öz idarəetmə formasını müəyyən etmək hüququnun təmin olunmasıdır. Xalqın öz taleyinə sahibliyidir.

Hər bir xalq suverenliyə, müstəqil dövlətini quraraq inkişaf etdirməyə can atır. Tarix boyu bu nailiyyət çox az xalqlara nəsib olub. Qürur duyuruq ki, dünyanın müstəqil dövlətə malik xalqları sırasında Azərbaycan xalqı da var. Ötən əsrin əvvəllərində müsəlman Şərqinin ilk demokratik respublikası kimi yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra itirilmiş müstəqilliyimizi əsrin sonuna doğru bərpa etdik. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin formalaşdırdığı möhkəm təməllər üzərində Azərbaycan inkişaf yollarında addım-addım irəliləyərək böyük uğurlara nail oldu. Ulu Öndərin strateji inkişaf kursunu əzmlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yürütdüyü məqsədyönlü daxili və xarici siyasətlə, reallaşdırdığı proqramlarla ölkəmizi dövrün ən qüdrətli mərhələsinə yetirdi.

Müstəqil Azərbaycan dövləti tarixdə heç zaman indiki qədər güclü olmayıb. Bu güc, qüdrət artıq ən böyük nailiyyətimiz olan suverenlik, ərazi bütövlüyü reallığını da əhatə edir. 23 aylıq Azərbaycan Xalq Cümhuriyyəti, ardınca sovet dövründəki ümumi inkişaf prosesləri, daha sonra isə 33 il yaşadığımız müstəqillik dövründə xalqımız çox böyük nailiyyətlər qazandı. Bu nailiyyətlərin hər birinin milli yaddaşımızda öz yeri, milli dövlətçilik tariximizdə öz rolu var. Amma bunlardan heç biri Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmin olunması faktı ilə müqayisə edilə bilməz.

Azərbaycanın bütün tarixi uğurlarına rəğmən ölkəmizin bu günü və gələcəyi ilə bağlı düşüncələrimizdə müəyyən bir natamamlıq vardı. Dünyanın böyük güclərinin regionda öz maraqlarını təmin etmək, bölgəmizi qarışdırıb obrazlı desək, bulanıq suda balıq tutmaq üçün əsrlərdir bu torpaqlarda həyata keçirdikləri erməni layihəsi suverenliyimiz, ərazi bütövlüyümüz üçün ən böyük təhdid idi. Ermənistanın işğalçı siyasəti səbəbindən müstəqillik dövründə ərazi bütövlüyümüzü tam təmin edə bilməmişdik. Minlərlə soydaşımızın həyatını itirməsi, min bir məhrumiyyətə məruz qalması, ermənilərin zaman-zaman azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlərlə müşayiət olunan bu məsələ Azərbaycanda nəsillərin problemi kimi qalır, öz həllini gözləyirdi.

Ərazi bütövlüyü - dövlətləri başqa dövlətin ərazi bütövlüyü və ya siyasi müstəqilliyi əleyhinə güc tətbiq etməkdən çəkindirən beynəlxalq hüququn prinsipidir. Bu prinsip BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində müvafiq şəkildə əks olunub. Güc tətbiq etməklə ərazi bütövlüyünün pozulması təcavüz aktı hesab olunur.

Ermənistan Respublikası isə 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdi. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmənin aparılması, insanlıq əleyhinə cinayətlərin törədilməsi, hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimizin viran qoyularaq xarabazarlığa çevrilməsi, ölkəmizin təbii resurslarının talan olunması, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımının törədilməsi də bu ağır cinayətin tərkib hissəsi idi.

Azərbaycan illər uzunu sülh danışıqlarına sadiqlik göstərərək məsələnin dinc yolla, insan itkilərinə yol vermədən həllinə çalışsa da, buna müyəssər olmadı. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı birləşmələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxması barədə 4 qətnaməsi havadan asılı qaldı. Ermənistan və onun beynəlxalq havadarları münaqişənin ömrünü uzatmaq, Azərbaycan ərazilərini işğal altında saxlamaq, ölkəmizi təslimçi sülhə razılaşdırmaq üçün ən müxtəlif üsullara əl atdılar. İkili standartlara məruz qaldıq, beynəlxalq hüququn prinsiplərinin ayaq altda tapdanmasına şahid olduq. Onlara elə gəlirdi ki, zaman keçdikcə Azərbaycan xalqı işğal faktı ilə barışacaq, öz mövqeyindən geri çəkiləcək və torpaqlarımızın işğalı faktını rəsmiləşdirmək daha asan olacaq. Amma Ermənistan da, onu himayə edənlər də yanıldıqlarını gördülər.

## Azərbaycan beynəlxalq hüququ təmin etdi

Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın edərək tarixi Zəfərini qazananda hər kəs anladı ki, dövlətimiz beynəlxalq hüququn prinsiplərini ordumuzun gücü ilə təmin etməyə qadirdir. Hər kəs gördü ki, Azərbaycan rəhbərliyinin ərazilərimizdə ikinci erməni dövlətinin yaradılmasına yol verilməyəcəyi barədə bəyanatları sadəcə bəyanat deyilmiş. Azərbaycan 44 günlük Vətən müharibəsindəki tarixi qələbəsi ilə torpaqlarımızı 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail oldu.

2023-cü ilin 19 sentyabrında isə Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlandı.

Cəmi 23 saat davam edən əməliyyat uğurla başa çatdı. Rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi. Azərbaycan ərazi bütövlüyünün ardınca suverenliyinin də tam bərpasına nail oldu. Suverenliyimizin bərqərar olduğu bütün ərazilərimizdə əzəmətlə dalğalanan üçrəngli bayrağımız bunun şanlı simvoludur.

## Böyük yolun başlanğıcı

"Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaratmaq ən böyük nailiyyətdir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir" - dövlət rəhbərimizin "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" sərəncamında belə qeyd edilir.

20 Sentyabr Dövlət Suverenliyi Günü böyük bir yolun başlanğıcıdır və bu başlanğıcın 30 il əvvəl imzalanmış "Əsrin müqaviləsi" ilə eyni günə təsadüf etməsi daha bir simvolik dəyər daşıyır. 30 il əvvəl Azərbaycan xalqı, dövləti həmin gündən gələcəyə doğru ilk addımlarını ataraq Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi nailiyyətlərlə dolu böyük bir tarix yazdı. Bu tarix bizi can atdığımız ən böyük qələbəyə, yürüdüyümüz ən böyük hədəfə yetirdi. Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini görüb bu böyük günlərin xoşbəxtliyini yaşamaq xalqımıza nəsib oldu.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***